N28 (1127) 16-21 iyul 2020-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## İlham Əliyev: “Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik”

İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.

Dövlətimizin başçısı iclasda çıxış edib. O, deyib: - Dünən günorta saatlarında Ermənistan Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törədib. Birinci dəfə deyil ki, dövlət sərhədində Ermənistan tərəfindən hərbi təxribatlar törədilir. Son bir neçə ay ərzində bu hərbi təxribatlar nəticəsində bizim hərbçilərimiz, eyni zamanda, mülki şəxslər həlak olmuşdur. Dünən günorta saatlarında onların növbəti təxribatı nəticəsində bir neçə hərbçimiz həlak olmuşdur. Qəflətən bizim hərbi postumuza artilleriya atəşi açılıb və bu çirkin əməl nəticəsində hərbçilərimiz həlak olub və yaralanıb. Allah şəhidlərimizə rəhmət etsin, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Deyə bilərəm ki, Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmışdır, adekvat cavab verilmişdir. Hərbçilərimizin qisası alınmışdır. Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilməmişlər.

Bu gün sərhəddə gərgin vəziyyət davam edir. Dünən gecə bütün aidiyyəti qurumlarla, komandanlarla əlaqədə idim. Bu gün səhər tezdən də mənə operativ məlumat verilib və sərhəddə vəziyyət sabitləşməyib. Bütün məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır. Çünki məhz Ermənistan rəhbərliyinin ikiüzlü və riyakar fəaliyyətinə görə belə hadisələr baş verir. Bir tərəfdən, beynəlxalq ictimaiyyətə müraciət edir və Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejiminin möhkəmləndirilməsi üçün kömək xahiş edir. Digər tərəfdən, hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək istəyir, mövqelərimizi zəbt etmək istəyir, mülki əhalini, kəndlərimizi atəşə tutur. Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Bütün məsuliyyət Ermənistanın rəhbərliyi üzərinə düşür. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərimizi qoruyacaq. Dünən günorta saatlarında və bu gün gecə düşmənə vurulmuş sarsıdıcı zərbələr bir daha onu göstərdi. Həlak olan hərbçilərimizin qisası alındı və onların qanı yerdə qalmayıb və qalmayacaq.

Bu çirkin əməllərə əl atmaq onların təcavüzkar siyasətinin təzahürüdür. Bu siyasəti məntiqlə izah etmək mümkün deyil. Çünki bu siyasət olduqca ziddiyyətlidir və bu siyasət Ermənistan üçün böyük təhlükə mənbəyidir. Çünki mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin.

Beynəlxalq təşkilatlara müvafiq müraciətlər edilib və operativ vəziyyət imkan verən kimi biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin hərbi nümayəndələrini həmin əraziyə dəvət edəcəyik, onlar öz gözləri ilə vəziyyəti görsünlər. Görsünlər ki, kim bu hərbi təxribatı törədib. Bu hərbi təxribat nəticəsində nələr baş verib və kim vəziyyətin gərginləşməsinə cavabdehlik daşıyır. Bizim işimiz haqq işidir və Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri atmayacaq.

Bildiyiniz kimi, Ermənistanda daxili vəziyyət artıq böhranlı həddə çatıb. Daxili çaxnaşmalar geniş vüsət alıb. Eyni zamanda, ölkəmizin son vaxtlar əldə etdiyi beynəlxalq uğurlar onları çox narahat edir və onlarda paxıllıq hissini daha da gücləndirib. Xüsusilə, beynəlxalq təşkilatlar çərçivəsində uğurlu fəaliyyətimiz, son müddət ərzində bütün aparıcı beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilmiş açıqlamalar, qəbul edilmiş qərarlar, ölkəmizin ərazi bütövlüyünün dəstəklənməsi, əlbəttə ki, Ermənistanın münaqişə ilə bağlı mövqelərinə çox ciddi zərbə vurubdur. Eyni zamanda, mötəbər kürsülərdən müntəzəm olaraq həm münaqişənin tarixi ilə, həm bölgənin tarixi ilə bağlı gətirdiyimiz konkret faktlar, inandırıcı əsaslandırmalar, əlbəttə ki, onların təbliğatını alt-üst edir. Artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bunu təsdiqləyən kifayət qədər sənədlər var və bu sənədləri biz indi geniş beynəlxalq ictimaiyyətə təqdim edirik. Eyni zamanda, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bunu da təsdiqləyən kifayət qədər çox beynəlxalq sənədlər və açıqlamalar var. O cümlədən bu yaxınlarda qondarma “Dağlıq Qarabağ respublikası”nda keçirilmiş qondarma “seçkilər” nəinki heç bir ölkə tərəfindən tanınmadı, hətta bütün aparıcı beynəlxalq təşkilatlar, qonşu ölkələr və bu məsələ ilə məşğul olan ölkələr bu seçkiləri pislədilər. Beləliklə, bir daha ölkəmizin ərazi bütövlüyünə dəstək ifadə olundu, bir daha açıq göstərildi ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.



Ona görə hazırda Ermənistanda hökm sürən hərc-mərclik və vəziyyətin böhran həddinə yaxınlaşması onları bu çirkin əməllərə sövq edibdir. Digər tərəfdən, o da sirr deyil ki, artıq uzun müddətdir ki, Ermənistan münaqişə ilə bağlı öz addımlarında xüsusilə Ermənistan-Azərbaycan dövlət sərhədini misal gətirərək belə bir rəy formalaşdırmaq istəyir ki, guya Azərbaycan Ermənistan ərazisinə hücumlar edir. Halbuki bu, yalandır. Bütün hücumlar Ermənistan tərəfindən törədilir və bunun kifayət qədər sənədləri var, video-foto sənədləri var. Azərbaycan isə sadəcə olaraq, bütün təxribatlara adekvat cavab verir. Əgər Ermənistan ərazisindən Azərbaycan mövqelərinə, Azərbaycan kəndlərinə atəş açılırsa, təbii ki, biz adekvat cavab verəcəyik və veririk. Ona görə Ermənistan bütün imkanlardan istifadə edib, eyni zamanda, saxta məlumatlar uydurub dövlət sərhədinə xüsusi diqqətin cəlb edilməsi üçün əlindən gələni edir. Dünənki hərbi təxribat bu çirkin siyasətin növbəti təzahürüdür.

Hesab edirəm ki, bu təxribatın digər səbəbi odur ki, son vaxtlar Azərbaycan beynəlxalq arenada çox böyük uğurlara imza atıb. Bizim təşəbbüsümüzlə beynəlxalq təşkilatların Zirvə görüşləri keçirilib. Bizim təşəbbüsümüzlə BMT Baş Assambleyasının xüsusi sessiyası baş tutub. Bu təklifi, bu təşəbbüsü 130-dan çox ölkə dəstəkləyib və Ermənistan bu təşəbbüsün əleyhinə çıxıb və bir daha özünü rüsvay edib, bir daha özünü dünyadan təcrid edib. Bu gün dünya gündəliyində birinci yerdə duran COVID ilə bağlı mübarizə məsələsində öz anlaşılmaz mövqeyi ilə bir daha bütün dünyanın diqqətini öz çirkin siyasətinə cəlb edib. Necə ola bilər ki, Azərbaycan bütün dünyanın bu mübarizədə birləşməsini tələb etdiyi bir vaxtda Ermənistan bunun əleyhinə çıxıb.

Ona görə beynəlxalq arenada Ermənistan demək olar ki, bütün dayaqlarını itirməkdədir. Daxili vəziyyət kifayət qədər gərgindir. Vəd olunan dırnaqarası çiçəklənmə, artıq hər kəs tərəfindən başa düşülür ki, bu, xülyadır, bu, yalandır. Əlbəttə ki, dünənki hadisə ilə bağlı Ermənistan rəsmi orqanlarının açıqladığı məlumat yalanın növbəti əlamətidir. Bu məlumatda onlar məsuliyyəti Azərbaycanın üzərinə yıxmaq istəyirlər. Halbuki buna heç bir əsas yoxdur və bir daha demək istəyirəm ki, - bütün müstəqil ekspertlər bunu təsdiq edə bilər, - heç bir əsas olmadan bizim hərbi postumuza artilleriya zərbəsi endirilib. Məhz bunun nəticəsində bizim hərbçilərimiz həlak olub. Onların gücü ona çatır ki, ancaq mülki əhalini atəşə tutsunlar, ya da ki, qəflətən bizim hərbi postumuza atəş açsınlar. Bunu da onlar etdilər və bir daha öz çirkin və məkrli mahiyyətlərini ortaya qoydular.

Mən bir daha demək istəyirəm ki, dünən və bu gecə düşmənə adekvat cavab verilib. Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik.

Sonra Təhlükəsizlik Şurasının iclası qapalı rejimdə davam edib.

## Azərbaycan Ordusu düşmənə layiq olduğu yeri göstərdi

İyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti dəfə təxribata əl atıb və Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonunun Ağdam kəndi istiqamətində mövqelərimizi ələ keçirməyə cəhd ediblər. Düşmən artilleriya atəşindən istifadə edərək hücuma cəhd göstərib, lakin rəşadətli ordumuz təcavüzkarı əvvəlki döyüşlərdə olduğu kimi, bu dəfə də yerində oturdub.

Erməni tərəfi ciddi itkilər verərək geri oturmağa məcbur edilmişdir. Erməni hərbçiləri iyul ayının 13-də və 14-də də döyüşləri davam etdirmiş, habelə Ermənistan–Azərbaycan sərhədlərinin digər istiqamətlərində təxribatlar törətməyə cəhdlər göstərmişlər. Azərbaycan Silahlı Qüvvələrinin qətiyyətli zərbələri nəticəsində düşmənin döyüş imkanları sarsıdılmış, böyük sayda hərbi texnikası və canlı qüvvəsi məhv edilmişdir. Düşmənə layiqli cavab verən Silahlı Qüvvələrimiz də təəssüf ki, itkilərə məruz qalmışdır.

### Tovuz istiqamətində gedən döyüşlərdə düşmən hücumlarının qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları:

**General-mayor Polad Həşimov,**
**Polkovnik İlqar Mirzəyev,**
**Mayor Namiq Əhmədov,**
**Mayor Anar Novruzov,**
**Baş leytenant Rəşad Mahmudov,**
**Gizir Yaşar Babayev,**
**Gizir İlqar Zeynallı,**
**Çavuş Vüqar Sadıqov,**
**Baş əsgər Elşad Məmmədov,**
**Əsgər Xəyyam Daşdəmirov,**
**Əsgər Elçin Mustafayev şəhid olublar.**



# Bu gün ölkə əhalisi dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin edilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Bakının Nizami rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 110/35/10 kilovoltluq "8-ci km" yarımstansiyasının açılışında iştirak edib.

"Azərenerji" ASC-nin sədri Baba Rzayev yarımstansiyada görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirilib ki, "8-ci km" yarımstansiyası 52 il əvvəl tikilmişdir və istismar müddətini çoxdan başa vurmuşdu. Nəticədə burada tez-tez qısa qapanmalar olurdu və enerji sistemi qəza təhlükəsi ilə üzləşirdi. Yenidənqurma nəticəsində bu problemlərin hamısı aradan qaldırılıb. Burada görülən yenidənqurma işləri çərçivəsində yarımstansiyanın açıq və qapalı paylayıcı qurğuları, transformatorları, inzibati-idarəetmə binası və digər zəruri infrastrukturu müasir səviyyədə yenilənib. Yarımstansiyanın yenidən qurulmasını zəruri edən səbəblərdən biri də Nizami rayonunda 35 kV-luq şəbəkənin genişlənməsi və gərginlik sinfinin dəyişdirilməsi idi. Görülən işlər nəticəsində yarımstansiyanın gücü 55 MVA-dək artırılıb. Burada yaradılmış Dispetçer İdarəetmə Mərkəzi və mikro SCADA sistemi yarımstansiyanın fəaliyyətinin səmərəliliyini daha da yüksəldib.

Prezident İlham Əliyev yarımstansiyanı işə salıb. Yenidən qurulan bu yarımstansiya Xətai və Nizami rayonlarında yüz minlərlə əhalinin, sənaye, məişət-kommunal, təhsil, tibb və iaşə müəssisələrinin elektrik enerjisi ilə fasiləsiz təmin edilməsində mühüm rol oynayacaq.

Qeyd edək ki, son iki ildə ölkəmizdə sistem əhəmiyyətli 20-dən çox yarımstansiyada tikinti, yenidənqurma, təmir və bərpa işləri aparılır. Bu günədək 220 kV-luq "Müşfiq", 110 kV-luq "Zabrat", "Dübəndi" və "Əhmədli" yarımstansiyaları yenidənqurmadan sonra istismara verilib. 220 kV-luq yeni tikilən "Böyükşor" və yenidən qurulan "Xırdalan" yarımstansiyalarında işlər tamamlanıb. Eyni zamanda, 500 kV-luq "Abşeron" və 110 kV-luq 10-dan çox yarımstansiyada işlər davam edir.

Bu gün Azərbaycanda enerji sistemdə aparılan köklü islahatların nəticəsidir ki, ölkə əhalisini dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin etmək mümkün olub. Ümumilikdə, son dövrlərdə bu sahədə həyata keçirilən kompleks tədbirlərin sırasında mövcud yarımstansiyaların müasir səviyyədə yenidən qurulması və bu cür yeni qurğuların inşası xüsusi yer tutur. "8-ci km" yarımstansiyasının yenidən qurulması bu istiqamətdə icra olunan işlərin ardıcıllıqla həyata keçirildiyini nümayiş etdirir.

# Müdafiə Nazirliyinin cəbhədəki vəziyyətlə bağlı məlumatı



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində gərginliyi artırmaq məqsədilə iriçaplı pulemyotlardan, snayper tüfənglərindən, 82 millimetrlik minaatanlardan və digər artilleriya qurğularından da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 91 dəfə pozub.

Ermənistan Respublikası Çəmbərək rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# Türkiyə Prezidenti: Bütün imkanlarımızla dost və qardaş Azərbaycanın yanındayıq



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Azərbaycana son hücumlarını kəskin şəkildə qınadığını söyləyib. Dövlət başçısı bildirib ki, Vətənini müdafiə edərkən şəhid olan azərbaycanlı qardaşlarımıza Allahdan rəhmət, yaralananlara şəfa diləyirik. Dağlıq Qarabağın işğalından bəri bu bölgədə davam edən gərginliyin Ermənistanın sistemli hücumları nəticəsində müharibəyə çevrilməsindən narahatıq. Sonuncu hücumlar Dağlıq Qarabağda deyil, iki dövlət arasındakı sərhəddə ağır silahlardan istifadə olunmaqla həyata keçirilib. Heç şübhəsiz, bu hücum Ermənistanın əndazəni aşan hərəkətidir. Burada məqsədli bir təxribat var: həm Dağlıq Qarabağ probleminin həllinin qarşısını almaq, həm də yeni bir münaqişə mənbəyi yaratmaq. Türkiyə qədim dostluq bağları və qardaşlıq əlaqələrinin olduğu Azərbaycanın haqq və hüququnun müdafiəsi, torpaqlarına qarşı yönələn təcavüzün qarşısının alınmasında tərəddüd etməyəcək. Öz ölkəsində sosial və epidemiya ilə bağlı problemləri həll edə bilməyən bir dövlətin belə hücumlar etməsi, ilk növbədə, xalqına qarşı hörmətsizlikdir.

Bütün imkanlarımızla dost və qardaş Azərbaycanın yanındayıq və yanında olmaqda davam edəcəyik.

# Azərbaycan Dünya Bankının hesabatında təcrübəsinə ən çox istinad edilən ölkə olub




Dünya Bankının "Avropa və Mərkəzi Asiyada səmərəli, hesabatlı və inklüziv institutların qurulması" mövzusunda hesabatı dərc olunub. Hesabatın əhatə etdiyi Avropa və Mərkəzi Asiya bölgəsində ən çox Azərbaycan təcrübəsinə (case study) istinad edilib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən verilən məlumata görə, hesabatın üç bölməsində - "Dövlət siyasəti proseslərinin gücləndirilməsi", "Xidmətin çatdırılmasının idarə edilməsi" və "Siyasətin səmərəliliyinin artırılması drayverləri və amilləri" hissələrində Azərbaycan təcrübəsi geniş təhlil olunub.

Qeyd edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Strateji Yol xəritələri qəbul olunub, islahatların effektiv idarə edilməsi mexanizmi qurulub, ölkə dalbadal dünyanın ən islahatçı dövlətləri sırasına yüksəlib, Azərbaycan monitorinq və qiymətləndirmə sahəsində innovativ həlləri tətbiq etməklə "nəticə-əsaslı yaxşı idarəetmə" nümunəsi yaradıb. Prezidentin yaratdığı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi dövlət-özəl dialoqu əsasında islahatların inklüzivliyinin təmin edilməsində rol oynayır.

Hesabatda Azərbaycandakı məhkəmə- hüquq islahatlarına da yer ayrılıb. Bildirilib ki, məhkəmələrdə yaradılan elektron sistem səmərəliliyə nəzarət, e-qərar və e-siyasət mexanizmlərinin inkişafını əhəmiyyətli dərəcədə yaxşılaşdıra və sadələşdirə bilər. Məhkəmə nəbzi (Court Pulse sistemi) inkişaf etmiş İKT sisteminin sadəcə kiçik bir hissəni təşkil edir. Elmi baxımdan yaradılaraq tətbiq olunan səmərəliliyin kəmiyyət baxımından idarəetmə sistemi məhkəmələrdə təkmil və standartlaşdırılmış qərar qəbul etmə prosesini təmin edərək vaxt, keyfiyyət və xərclərin səmərəliliyi / məhsuldarlıq kimi aspektləri əhatə edir.

Həmçinin hesabatda Azərbaycanın neftlə zəngin ölkə kimi hasilat sənayesinin şəffaflığı üzrə beynəlxalq təşəbbüslərdə iştirakına da yer ayrılıb. Qeyd olunub ki, maraqlı tərəflər arasında dialoq qurmaq, hökumətə etimadı artırmaq və investisiya mühitini yaxşılaşdırmaq üçün hasilat sənayesində şəffaflıq təşəbbüsü vacibdir.

# Yeni Qanun ünvanlı sosial yardımın təyinatı şərtlərinin yumşaldılmasına imkan verir



Prezident İlham Əliyev "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanunu təsdiq edib.

Dövlət başçısının sosial sahə ilə bağlı əsas tapşırıqlarından biri ünvanlı dövlət sosial yardımı proqramının icra mexanizminin sadələşdirilməsi, bu yardımın təyin olunması meyarlarının yumşaldılması və aztəminatlı ailələrin proqrama əlçatanlığının artırılması, ümumilikdə bu proqramın genişləndirilməsidir. Bununla bağlı müvafiq işlər aparılıb, son aylarda əlavə olaraq 15 minədək ailə bu proqramdan faydalanmağa başlayıb və indi 85 minə yaxın ailə (350 mindən çox şəxs) bu yardımı alır. Hər ailəyə orta hesabla ayda 225 manat verilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, yeni təsdiqlənən Qanun isə ünvanlı sosial yardımın təyinatı meyarlarının yumşaldılmasında, aztəminatlı ailələrin proqrama əlçatanlığının artırılmasında, proqramın daha da genişləndirilməsində mühüm addımlar atılmasına imkan verir.

Əsas yeniliklərdən biri ünvanlı sosial yardımla bağlı ailənin müraciətlərinə faktiki yaşayış yeri üzrə baxılmasını nəzərdə tutur. Ailə tərkibində əmək qabiliyyətli olub güzəştli səbəbdən işləməyən şəxslərin sırası da dəqiqləşdirilməklə genişləndirilib.

Belə ki, bu sıraya birinci dərəcə əlilliyi olan şəxsə, 8 yaşına çatmamış uşağa və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa qulluq edən, 23 yaşınadək əyani təhsil alan əmək qabiliyyətli ailə üzvləri də aid edilib. Habelə ailə tərkibində deyil, ailənin yalnız gəlirlərində baş verən dəyişiklik nəzərə alınacaq. Bu dəyişiklik barədə məlumat verilməsi üçün müddət də artıq 5 iş günündən 15 iş gününə qədər uzadılıb.

Yeni Qanuna uyğun olaraq, hazırlanmış Qaydanın layihəsində ünvanlı sosial yardım hüququna baxılan zaman ailənin götürdüyü kreditin gəlir kimi nəzərə alınmaması və yardım təyinatına mane olmaması əksini tapır. Sosial yardım üçün müraciət edən ailənin adambaşına düşən kommunal və rabitə xərclərinin cəminin orta aylıq məbləği ölkə üzrə təsdiq olunmuş yaşayış minimumunun 10 faizdən çox olmamalıdır, lakin həmin nisbətin 15 faizə çatdırılması nəzərdə tutulub.

Həmçinin yeni Qaydanın layihəsində ünvanlı sosial yardım üçün müraciət edərkən tələb olunan məlumatların sayının əhəmiyyətli dərəcədə azaldılması, ünvanlı sosial yardım təyin olunmuş ailələrin özünüməşğulluq proqramı vasitəsilə kiçik biznesə çıxışına və gəlir imkanlarını artırmalarına şərait yaradılması və s. kimi yeniliklər var.

# Azərbaycandan keçən Çin-İtaliya konteyner qatarının hərəkəti bərpa edilib




Çindən İtaliyaya tomat pastası daşıyan konteyner qatarlarının hərəkəti bərpa olunub.

"ADY Konteyner" MMC-dən bildirilib ki, 82 konteynerdən ibarət növbəti qatar operatoru "Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti "ADY Konteyner" olan "Beket-Ata" fider gəmisi vasitəsilə Qazaxıstanın Aktau limanından Ələt limanına çatdırılıb. İyirmi futluq konteynerlər limanda aşırıldıqdan sonra platformalara yüklənərək dəmir yolu vasitəsilə Gürcüstanın Poti limanına, oradan isə gəmilərlə İtaliyaya çatdırılacaq. Daşımanın operatoru Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutudur.

Qeyd edək ki, koronavirus (COVID-19) pandemiyası başlayandan Çindən İtaliyaya mütəmadi olaraq tomat pastası daşıyan konteyner qatarlarının hərəkətində fasilə yaranmışdı.

# Gürcüstan cari ilin 6 ayında 787,05 milyon kilovat/saat elektrik enerjisi idxal edib



Bu barədə "Gürcüstanın elektrik enerjisi sisteminin kommersiya operatoru"nun (ESCO) hesabatında deyilir. Bildirilir ki, Gürcüstanın yanvar-iyun aylarında aldığı elektrik enerjisinin 415,97 milyon kilovat/saatı və ya 52,8 faizi Azərbaycanın payına düşüb. Hesabat dövründə Gürcüstanın ikinci əsas elektrik enerjisi tədarükçüsü Rusiya olub (371,08 milyon kilovat/saat).

# Keçən ay qlobal neft tədarükü gündəlik 86,2 milyon barrel olub

İyunda qlobal neft tədarükü may ayı ilə müqayisədə 2 milyon 950 min barrel azalaraq gündəlik 86 milyon 290 min barrel olub.

Bu barədə Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) aylıq hesabatında deyilir.

Bildirilir ki, keçən ay qeyri-OPEC ölkələrinin neft istehsalı isə 1 milyon 60 min barrel geriləyərək sutkada 64 milyon 20 min barrel təşkil edib.

# Hüseynov Heydər Nəcəf oğlu (1908-1950)



***Görkəmli Azərbaycan filosofu Heydər Hüseynov 1908-ci il aprelin 3-də İrəvanda anadan olmuşdur.***

H.Hüseynov Bakının 18 saylı məktəbinin şagirdi olmuş, erkən gənclik yaşlarından əmək fəaliyyətinə başlamış, 1924-cü ildə Pedaqoji Texnikuma daxil olmuş və texnikumun kitabxanasında işə başlamışdır. H. Hüseynov 1927-1931-ci illərdə Lenin adına Pedaqoji Universitetin həm şərqşünaslıq, həm də pedaqoji fakültələrinin tələbəsi olmuş, ərəb və fars dillərinə mükəmməl yiyələnmişdir. Universitetdə oxuduğu illərdə isə Maştağa kəndində 17 saylı və Bakı şəhərində 59 saylı orta məktəblərdə müəllimlik etmişdir.

H.Hüseynov Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun fəlsəfə şöbəsinə aspiranturada oxumağa göndərilmiş və aspiranturanı bitirdikdən sonra pedaqoji fəaliyyətə başlamış, 1932-ci ildən 1936-cı ilə qədər M.Əzizbəyov adına Qırmızı Bayraqlı Sənaye İnstitutunda və Sovet Ticarəti İnstitutunda fəlsəfədən dərs demişdir.

Onun Əhmədağa Kazımovla birlikdə yazdığı və 1935-ci ildə nəşr olunan "Dialektik materializm" adlı ilk fəlsəfi əsəri gələcək filosofun elmdə atdığı ilk uğurlu addım idi.

1936-cı ildən elmi fəaliyyətini Azərbaycan Sovet Ensiklopediyası Komitəsində davam etdirən H.Hüseynov komitənin əvvəlcə elmi işçisi, bir qədər sonra katibi olmuş, 1939-cu ildən SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının Ensiklopediya və Lüğətlər İnstitutunda direktor vəzifəsində çalışmışdır.

**H.Hüseynov 1939-cu ildə Tiflis şəhərində "M.F.Axundovun fəlsəfi görüşləri" adlı dissertasiya müdafiə etmişdir.**

Müharibə illərində M.Arif və H. Hüseynovun redaktorluğu altında "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin ikicildliyinin nəşr edilməsi də humanitar elmin böyük uğuru oldu. Azərbaycanın fəlsəfi və ictimai-siyasi fikir tarixinə dair tədqiqat əsərlərinə görə ona fəlsəfə elmləri doktoru elmi dərəcəsi və professor adı verilmişdir. Azərbaycan tərcümə məktəbinin əsasını qoyan, ilk Azərbaycan-rus və rus-Azərbaycan lüğətinin redaktorlarından olan H. Hüseynov 100-dən çox elmi məqalə yazmaqla yanaşı, Bəhmənyar, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Abbasqulu ağa Bakıxanov, Mirzə Kazım bəy, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi haqqında ciddi tədqiqat işləri aparmışdır.

H.Hüseynovun baş redaktoru olduğu dördcildlik "Rusca-azərbaycanca lüğət" (1940-1946) dövrün elmi mühitində nəzərə çarpan hadisələrdən idi. O, bu lüğətin ərsəyə gəlməsində rolu olan Azərbaycan SSR EA-nın Dillər İnstitutunun direktoru Y.Mirbabayev və həmin institutun lüğətlər şöbəsinin müdiri Ə.Orucovla birlikdə 1947-ci il üçün elm sahəsində Dövlət Mükafatına – ikinci dərəcəli Stalin Mükafatına layiq görülmüşdür.

1945-ci il yanvarın 23-də SSRİ Xalq Komissarları Soveti Filialın Azərbaycan Elmlər Akademiyasına çevrilməsi haqqında qərar qəbul etdi. Yeni yaradılan Azərbaycan Elmlər Akademiyasına seçilən 15 həqiqi üzv arasında H.Hüseynov da vardı. Həmin il martın 31-də Akademiyanın ilk ümumi iclasında Mir Əsədulla Mirqasımov prezident, Heydər Hüseynov isə prezidentin müavini seçildi. O, 1945-1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti, eyni zamanda, Akademiyanın İctimai Elmlər Bölməsinin sədri olmuşdur. 1943-1945-ci illərdə Azərbaycan Dövlət Universitetinin əvvəl marksizm-leninizmin əsasları, sonra fəlsəfə kafedrasının müdiri, 1945-1950-ci illərdə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun direktoru olmuşdur.

Universitetin tarix fakültəsinin nəzdində "Fəlsəfə" şöbəsinin, filologiya fakültəsində "Məntiq və psixologiya" şöbəsinin açılması, Azərbaycan Elmlər Akademiyasının İctimai Elmlər Bölməsi tərkibində Fəlsəfə və Hüquq İnstitutunun yaradılması H. Hüseynovun adı ilə bağlıdır.

H.Hüseynovun yaradıcılığında mühüm yer tutan "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" adlı kitabı rus dilində yazılmış, əsər ilk dəfə 1949-cu ildə, ikinci dəfə 1958-ci ildə müəyyən ixtisarlarla çap edilmişdir. Bu fundamental əsərə görə o, 1950-ci ildə Stalin Mükafatına layiq görülmüşdür.

**H.Hüseynov 17 avqust 1950-ci ildə vəfat etmişdir.**

# Suvarma sisteminin yüksək texnologiyalar əsasında qurulması qarşıda duran ən zəruri vəzifələrdəndir

***Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan dövlətçilik və bunun əsas sütunlarından biri sayılan uğurlu iqtisadi siyasət Azərbaycanın dayanıqlı və davamlı inkişafını təmin etmişdir. Respublikamızda istər sovetlər dönəmində, istərsə də müstəqillik illərində aqrar bölmə xüsusi çəkiyə malik olmuş, real sektorda çalışanların az qala yarısı bu sahənin payına düşmüşdür.***

Kənd təsərrüfatının bugünkü uğurlarından danışarkən, bunu təmin edən iki amil mütləq nəzərə alınmalıdır: birincisi, ulu öndər tərəfindən 1998-ci ildə uğurla gerçəkləşdirilən torpaq islahatları, ikincisi, tikintisi neftdən əldə olunan gəlirlərin digər sahələrlə bərabər, kənd təsərrüfatına yönəldilməsi. Hər iki amil kənd təsərrüfatının bazar prinsipləri əsasında inkişafına, sahibkarlıq zümrəsinin təşəkkül tapıb formalaşmasına yeni yol açmışdır. Ümummilli fikrin layiqli davamçısı İlham Əliyev prezident seçildikdən sonra 2004-cü ildən başlayaraq respublikamızın sürətli və sıçrayışlı sosial-iqtisadi inkişafı təmin edilmişdir.

Ölkəmizdə aqrar sahənin inkişafı bir sıra aqrotexniki amillərlə yanaşı, həm də meliorasiya və su təchizatı sistemlərinin yüksək səviyyədə təşkilindən asılıdır.

**Azərbaycanda uzun illər suvarma əkinçiliyi mövcud olmuş, bir çox hallarda bu sahədə çətinliklər yaranmışdır. Respublika ərazisinin yalnız 52,3 faizi kənd təsərrüfatına yararlıdır ki, bu ərazinin də böyük qismini üzümlüklər, çay plantasiyaları, otlaqlar və biçənəklər təşkil edir. Cəmi 1 milyon 674 min hektar ərazi şum altında istifadə olunur. Suvarılan torpaqlar yararlı torpaqların üçdə birini əhatə etsə də, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 90 faizi bu torpaqların payına düşür.**

Azərbaycanda suvarma əkinçiliyinin tarixi XX əsrin əvvəllərinə gedib çıxır. İstər Çar Rusiyası, istərsə də sovet hakimiyyəti illərində, konkret olaraq ötən əsrin 50-ci illərində Azərbaycanda torpaqların yarısı, yəni 49,5 faizi bu və ya digər dərəcədə şoranlaşmaya məruz qalmışdı.

**1969-1989-cu illərdə həyata keçirilən genişmiqyaslı meliorasiya tədbirləri nəticəsində həm suvarma və kollektor-drenaj şəbəkəsi yaradıldı, həm də torpaqların hamarlanması, kimyəvi yuyulması işləri aparıldı. Həmçinin, torpaqlara mineral gübrələr verməklə və digər aqrotexniki tədbirlər görməklə onun münbitliyi artırıldı.**



Bütün bunlar isə ümummilli lider Heydər Əliyevin səyi və gərgin əməyi sayəsində mümkün olmuşdur. 90-cı illərdə baş verən ictimai-siyasi hadisələrlə əlaqədar torpaqların meliorativ vəziyyəti pisləşmiş, bu isə şoranlaşmanın sürətlənməsinə zəmin yaratmışdır.

1989-2000-ci illər ərzində suvarılan torpaqların şorlaşma dinamikası göstərir ki, 11 ildə torpağın 1 metrlik üst qatındakı duzların həcmi çoxalmış və şorlaşmış torpaqların miqdarı 4 faiz artmışdır. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə respublika rəhbərliyinə yenidən qayıdışından sonra aqrar bölmədə aparılan köklü islahatlar, torpaqların özəlləşdirilməsi, su ehtiyatlarından səmərəli istifadə olunması və bu sahəyə investisiyaların yönəldilməsi, dövlətin maliyyə dəstəyinin genişləndirilməsi kənd təsərrüfatının inkişafında ciddi dönüşə gətirib çıxarmışdır.

Xarici investisiyalar hesabına Baş Mil-Muğan kollektorunun II və III növbələri tikilib istifadəyə verilmiş, Tərtər, Bərdə, Şəmkir və Biləsuvar rayonlarının ərazisində suvarma sistemlərinin təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlər görülmüşdür.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin xətti ilə Dünya Bankının maliyyə dəstəyi əsasında "Suvarma paylayıcı sistemi və onun idarə olunmasının təkmilləşdirilməsi layihəsi", Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə İFAD təşkilatının maliyyə dəstəyi əsasında suvarma drenaj şəbəkəsinin bərpası, yenidən qurulması yekunlaşmış və hazırda 14 min hektar sahədə işlər başa çatdırılmaq üzrədir.

**Respublikanın 500 min hektar suvarılan ərazisində duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Muğan kollektorunun III hissəsi başa çatdırılaraq, Mil-Qarabağ kollektoru ilə birləşmişdir.**

2000-2016-cı illər arasında suvarılan torpaqlarda şoranlaşmanın vəziyyəti göstərir ki, bu müddət ərzində şorlaşma 52 faizdən 45 faizə enmişdir. Burada da şiddətli şorlaşmış torpaqlar cəmi 8 faiz təşkil etmişdir.

Təkcə son iki ildə "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin nəzdində fəaliyyət göstərən "Azdövlətsutəslayihə" İnstitutu tərəfindən hazırlanan layihələrin siyahısına baxsaq, həyata keçirilən tədbirlərin həcmi və miqyasının necə böyük olduğunu görərik. Bunlar aşağıdakılardır: **Yuxarı Mil kanalının tikintisi, 19205 hektarı suvarma suyu ilə təmin edəcək Neftçala magistral kanalının nasos stansiyasının tikintisi, Şəmkir, Maşın kanalının I növbədə tikintisi, Şabran Aqroparkında infrastruktur meliorasiya tədbirləri, Goranboy və Samux ərazisində Aqroparkın suvarma suyu ilə təmin edilməsi, Qax rayonu ərazisində yaradılan Aqropark ərazisinin suvarma suyu ilə təmin edilməsi, əhalisi 375 min nəfərə yaxın olan 36 şəhər və rayonun 136 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı sahələrin suvarma suyu ilə təmin edilməsi, əhalinin içməli suya tələbatının ödənilməsi üçün 150 subartezian quyusunun layihələndirilməsi və qazılması, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi, Ağsu rayonunda yerləşən Cavanşir su anbarında tikinti bərpa işlərinin aparılması...**

Hazırda aşağıdakı layihələrin hazırlanması və icra olunması üzərində iş gedir: Şəmkir Maşın kanalının II növbəsinin tikintisi, əhalisi 592 236 nəfər olan 38 şəhər və rayonun 249 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyatyanı sahələrin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 subartezian quyusunun layihələndirilməsi və qazılması, 3300 hektar torpaq sahəsini əhatə edəcək Xəzər-Pirallahı və Xızı rayonlarının əkin sahələri və badam salınacaq plantasiyaların suvarma suyu ilə təminatı, 5600 hektar sahəni suvarma suyu ilə təmin edəcək Hacıqabul rayonu ərazisində suvarma-meliorasiya tədbirlərinin görülməsi, 12 000 hektar sahəni əhatə edəcək, Şəki və Oğuz rayonlarının ərazisində yaradılacaq Aqroparkın suvarma suyu ilə təmin edilməsi, 5268 hektar sahəni suvarma suyu ilə təmin edəcək Araz çayının yeni qolu vasitəsilə suvarılan sahələrin istifadəyə verilməsi. Həmçinin, bu tədbirlərlə paralel olaraq sel və daşqın təhlükəsi olan çayların zərərli təsirlərinə qarşı mühafizə tədbirləri, suvarma sistemlərində qəza vəziyyətinin aradan qaldırılması və digər tədbirlərin layihə-smeta sənədləri hazırlanır.

Şübhəsiz ki, belə irimiqyaslı meliorasiya tədbirlərinin görülməsinə böyük miqdarda maliyyə vəsaitləri tələb olunur. Artıq 15 ildir ki, ardıcıl olaraq istər Azərbaycan hökuməti, istərsə də beynəlxalq maliyyə qurumları, bank təşkilatları tərəfindən meliorasiya və su təchizatı sisteminin yaxşılaşdırılmasına, yenidən qurulmasına və modernləşdirilməsinə maliyyə vəsaitləri, güzəştli kreditlər və investisiyalar yönəldilir. Yuxarıda sadalanan layihələr, görülən tədbirlər bütün işlərin hamısını tam şəkildə əks etdirmir. Çünki reallıqda həyata keçirilən iri-li-xırdalı tədbirlərin sayı çoxdur. Ölkədə kənd təsərrüfatı sürətlə inkişaf edir, bir-birinin ardınca aqropark kompleksləri tikilib istifadəyə verilir, yaxın müddət ərzində onların sayı 52-ə çatdırılacaq. Kənd təsərrüfatında intensiv bağçılıq, bostançılıq tədbirləri həyata keçirilir, əkin sahələrinin damcı və yağdırma üsulu ilə suvarılmasının tətbiqinə başlanılıb və bu şəbəkənin genişləndirilməsi hədəf götürülüb. Bütün bunlar həm sudan qənaətlə istifadə edilməsinə və məhsulun keyfiyyətinin yüksəldilməsinə, həm də istehsalın həcminin və ixrac imkanlarının artırılmasına təkan verəcək.

**Azərbaycanın kənd təsərrüfatı sahəsində zəngin təcrübəsi vardır. Ölkəmizdə yetişdirilən üzümün, narın, əncirin, almanın, heyvanın, yüz çeşiddə dadlı-ləzzətli bostan və tərəvəz bitkilərinin şöhrəti dünyaya yayılıb. Azərbaycan brendi altında məhsullar xarici bazarlarda özünə yer alıb. Lakin zaman dəyişib, ixrac imkanlarını genişləndirmək yeni standartlar və innovativ yanaşmalar tələb edir. Suvarma sistemlərinin müasir texnologiyalar əsasında qurulması aqrar bölmənin qarşısında duran ən zəruri vəzifələrdən biridir.**

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# Qlobal pandemik çağırış və davamlı inkişaf



***Qlobal pandemik çağırışlar və davamlı inkişaf. Bəşəriyyət XXI əsr üçün əsas məqsəd kimi davamlı inkişafı təsbit edib.***

Lakin davamlı inkişaf üçün daim təhlükələr olur. Qlobal təhlükələri: təbiətin və cəmiyyətin yaratdıqlarına bölmək olar. Bu təhlükələrdən biri də pandemiyalardır. Pandemiya yunan dilində "bütün xalq" deməkdir. Təhlilimiz göstərir ki, eramızdan 600 il əvvəl mövcud olan infeksion xəstəlik törədiciləri hələ də insanlar arasında yaşayır. Onlar arasında Bizans imperiyasının süqutuna əhəmiyyətli təsir edən malyariya da var, XX əsrdə 300-500 milyon həyat aparan təbbi çiçək də.




Bu, bəşəriyyəti çox ciddi düşündürməlidir. Təəssüf ki, koronavirusa yoluxanların sayı 13 milyonu üstələyir və bu rəqəm artmaqda davam edir.



Yoluxucu xəstəliklərin yayılma sürətinin artması qloballaşmanın fəsadıdır.



**Səbəblər:**

1918-20-ci illərdə 50-100 milyon insanı qurban edən qripin növü - ispanka I Dünya müharibəsindən sonra oldu. Bəs, indi qlobal miqyasda infeksion xəstəlik üçün ciddi səbəb varmı? Koronovirusun təbiətin yaratdığını düşünənlər də var, onun bioloji silah olduğunu fikirləşənlər də. Təbiətin insanlardan qisası versiyasının tərəfdarları planet resurslarının istismarının, ətraf mühitin çirklənməsinin amansız həddə çatmasına cavab olaraq pandemiyanı sunami, qasırğa, zəlzələ kimi hadisələrindən sayır. Bu prosesdə insan əli olması versiyasının tərəfdarları isə onu musiqi klipi, bədii əsərlərdə, filmlərdə müxtəlif işarələr verildiyini əsas göstərərək, Ələddinin sehirli çırağından çıxan cinə bənzədir.



2019-cu ildə İsraildə Eurovision müsabiqəsinin bağlanışında "Gələcək" adlı musiqi nömrəsində Madonnanı əleyhqazla müşayiət edənlər, eləcə də ABŞ yazıçıları Silviya Braun (Shoemaker) və Harrison Lindseyin "Peyğəmbərlik" ədəbi əsərində 2020-ci ilin təsviri təəccüb doğurur. Belə ki, 2004-cü ildə nəşr olunan bu kitabda yazılıb: "2020-lərdə ağciyərlər və bronxlara ciddi şəkildə təsir edən və müalicəyə tabe olmayan pnevmoniyaya bənzər bir xəstəliyin partlaması səbəbindən, əməliyyat maskaları və plastik əlcəklərdən istifadə edən çoxlu insanı görəcəksiniz ".





Tarixdə süni yayılan xəstəliklər barədə misallar var. Məsələn, ispan müstəmləkəçiləri XVI əsrdə geyimləri təbii çiçək virusu ilə yoluxduraraq hindulara bağışlayıb - bioloji silahla aborigenləri qıraraq Amerikaya sahib olub. Bəlkə əsrlər sonra ispanka təbiətin hindulara görə qisasıdır?!

İnsan sayının azaldılması fikri ingilis keşişi və iqtisadçısı **Thomas Malthusun (1766-1834)** nəzəriyyəsinə uyğun ərzağın ədədi, insanların isə həndəsi silsilə ilə artması və nəticədə yer üzündə aclığın olacağı düşüncəsi ilə bağlıdır. Lakin bu fikirlərə qarşı müqəddəs Quran kəlməsi dayanır: "İnsan dünyaya gəlməmiş Allah Təala onun ruzisini göndərir". Yer kürəsində yaşamağa kifayət qədər ərazi var. Məsələn: əhali sıxlığı Rusiyada Çindən 17.1 dəfə azdır.





(1 $km^2$-ə 146.8/ 8.57 nəfər düşür. 1.1.2020).

**Səfərbərlik:** Pandemiya ilə bağlı milli dövlətlər və müvafiq beynəlxalq təşkilatlar, xüsusilə Ümumdünya Səhiyyə Təşkilatı tibbi, inzibati, iqtisadi resurları mübarizəyə səfərbər edib. Bu meqa hadisə insan fəaliyyətinin bütün sahələrində dərin iz qoyur. İnsanların müdafiəsi sahəsində pandemiya dövlət/transmilli şirkət nüfuz nisbətini dövlət xeyrinə dəyişdi. İngilislərin dediyi kimi: "Mənim evim, mənim qalam" kəlamına uyğun evə çəkilən insanlara türklər: "Ev həyat dolu, həyat evə sığar" dedi. Cəmiyyət üçün antik fəlsəfədən gələn 2 fikir faydalı oldu: "Mümkün olmayan hadisənin baş verməsi mümkündür" - Aqafon və "Başqalarının qanundan qorxaraq etmədiklərini mən dərk edərək etmədim" - Sokrat. Bu kimi fikirlərə Süleyman padşahın üzüyündə yazılmış "Bu da keçər" ifadəsi də qoşulur.





**Pandemiya dərsi.** Dövlətlər və vətəndaşlar müdafiə tədbirlərinə hər zaman hazır olmalıdır. Dövlət ehtiyatlarında, müəssisələrdə yanğınsöndürmə avadanlığı olduğu kimi, tibbi maska və dezinfeksiya vasitələri saxlanılmalıdır. Sərhəddə hamını yoxlamaq imkanı olmalıdır. Nəbatət də köməyə gələ bilər. Yol boyu, xəstəxana, yaşayış məntəqəsi ətrafı əkilən juniperus kolları havaya fitonsid (sarımsaq-soğan elementi ) buraxaraq virus əleyhinə təsir edər.




**İqtısadiyyatda nələr baş verir?**

**Virus hücuma keçir:** Maddi nemətlərin yaradılması, mübadiləsi, bölgüsü və istehlakı ilə məşğul olan iqtisadiyyatda struktur dəyişir. Yoluxma və karantinin doğurduğu fəsadlar nəticəsində məcmu tələb və məcmu təklif kəskin azalıb - dünya iqtisadiyyatının həcmi kiçilir. Enerji qiymətləri azalır.






Böhranın nəticəsi olaraq qızılın qiyməti artır. 2020-ci ilin 19 mart-8 iyul tarixlərində bu metalın 1 troya unsiyasının qiyməti 1466 ABŞ dollarından 1794-ə qalxıb, yəni 22.4% artıb.

**Pandemiyadan (total qlobal karantindən) zərər çəkən sahələr:**

***- Energetika, xüsusilə bu dövrdə həm də OPEC çərçivəsində uğursuz danışıqlardan zərbə alan neft sənayesi;***
***- Xarici ticarət;***
***- Nəqliyyat;***
***- Turizm, otelçilik, ictimai iaşə;***
***- Bərbərxana - gözəllik salonu, fitnes, idman, kino və s. mədəniyyət və əyləncə sahəsi;***



***- Qeyri-yaşayış sahələrinin icarəsi.***

Lakin iqtisadiyyat əks hücumdadır:

**Ümidlər var.** Azərbaycan atalar sözü:

*"İgid odur, hər zəhmətə qatlana,*
*İgid odur, atdan düşə, atlana".*



**Pandemiyadan (total qlobal karantindən) xeyir görən sahələr:**

***- IT; e-ticarət, kompüter oyunları; mobil telefoniya;***
***- Ərzaq və hazır qida;***
***- Təbabət, dərman və tibbi ləvazimatın istehsalı və satışı;***
***- Media;***
***- Bank kart prosessinqi;***




***- ASAN xidmət;***
***- Əməyin qeydiyyat sistemi.***

**Gələcək iqtisadiyyat.** Düşünürəm:

**1.** Fərdi izolyasiya tədbirləri çərçivəsində hərəkətdə fərdi vasitələrin payı və buna yönəlik infrastruktur artacaq: at, velosiped, skuter, moped, motosiklet, avtomobil, yaxta, biznes (kiçik) təyyarələr, yaxın gələcəkdə sərnişin daşıyan dronlar. İctimai nəqliyyatda fərdi guşələr, sürücüsüz taksilər, təyyarələrə alternativ kimi sürət qatarları - onun yeni növləri sistemin tərkibinə qatılacaq. Dəniz səyahətçiləri; kruiz layner həvəskarlarının müdafiəsinə görə xəstəxana-gəmilər inşa ediləcək.






**2.** Fərdi həyətlərdə hovuzlar, kiçik idman-sağlamlıq guşələri yaradılacaq. Şəhər mərkəzindən şəhər kənarına, şəhərlərdən regionlara, binalardan həyət evlərinə keçid (rəqabət aparmaq üçün bina kompleksi lüks rahatlıq - təchizat və dezinfeksiya təmin etməlidir) və buna uyğun yeni nəqliyyat xətlərinin açılışı olacaq.

**3.** İş yerlərinin yaşayış yerlərinə yaxınlığının təmini vacib istək olacaq.

**4.** Smartfon və ağıllı saatlar həyat göstəriciləri: hərarət, təzyiq, ürək döyüntüsü sayı, mineral-vitamin miqdarı, immunitetin avtomatik rejimdə normadan kənarlaşmasını bildirən proqramlarla təmin olunacaq. Tibbi testlərin tam təhlükəsizliyinə inam da formalaşdırılmalıdır.

**5.** Sığorta şirkətləri koronavirusdan xüsusi sığorta növü təklif edəcək.

**6.** İzolyasiyanın maraqlı olması üçün əhali, xüsusilə yaşı 65-dən çox olan qrup üçün TV-də şəxsiyyət vəsiqələri nömrələri əsasında lotereyalar keçirilməsi faydalı olar.




**7.** Pandemiya dövründə davranış qaydaları orta məktəb dərsliklərində yer alacaq. Tədris müəssisələrində təkrarçılığa yol verməmək üçün bəzi onlayn dərsləri birləşdirən ehtiyat e-cədvəllər tərtib olunacaq.

İqtisadiyyat Nazirliyinin gücü sahibkarlara bağlılığındadır. ÜDM-in 80%-dən çoxunun özəl sahədə yaradılması bu münasibətləri mütləq zərurət edir. Ona görə hər bir sahibkarın




inkişafı ilə bağlı tələblər öyrənilməli və ictimai mənafeyə uyğun olanlar gerçəkləşdirilməlidir. İqtisadi təhlükəsizlik milli sərhədlər, ya da re-

gional çərçivədə təmin olunmalıdır. Səmərəli istehsal üçün bütün resurslardan istifadə və bütün lüzumsuz manelərin aradan qaldırılması zəruridir. Biznesin dayanıqlığı üçün dövlətə yaxınlıq lazımdır. Daha çox şirkətin dövlət satınalmalarına cəlbi aktuallaşır.

**Qlobal tənzimləyicilər mövzu barədə.**



**BMT baş katibi Antoniu Quttereş:** “Qlobal ÜDM-in 10%-i pandemiya fəsadlarını aradan galdırmağa gedə bilər.” BMT 2021-ci ilin sonuna qədər dünya iqtisadiyyatı barədə proqnoz bildirib: Bu il qlobal təsərrüfatın 3,2% azalacağı, 2 ilə bu itkinin 8,5 trilyon dollar təşkil edəcəyi gözlənilir (müəllif qeydi - lakin biz, təəssüf ki, itkilərin daha böyük olacağını düşünürük). Bu, Böyük depressiyadan sonra ən kəskin azalmadır. Pandemiya aşağı ixtisaslı işçilərə və Afrika qitəsinə daha çox zərbə vuraraq yoxsulluğu artırır, varlı və kasıb nisbətini dərinləşdirir. BMT bu fəsadın təsirlərini qlobal əməkdaşlığın yeni keyfiyyət mərhələsinə qalxması ilə dəf etməyi mümkün sayır. Böhrandan sonra bərpa prosesində təlatümlərə daha dayanıqlı iqtisadi model qurmaq lazımdır. Həmçinin, resursları səhiyyə sisteminin möhkəmləndirilməsi və sosial müdafiə, yaşıl texnologiyalardan istifadə və iqlim dəyişiklikləri ilə mübarizəyə yönəltmək lazımdır. Dünya əhalisinin 1/6-nin işsiz qalma ehtimalı var.

**Yoluxmuş iqtisadiyyat.**

CRB indeksinə əsasən, əksər birja mallarının qiymətinin azalması müşahidə olunur. G20 ölkələri 26 martda onlayn toplantıda dünya iqtisadiyyatına monetar və fiskal alətlər vasitəsilə 5 trilyon dollar həcmində dəstək verəcəyini bildirib. BVF-nin icraçı direktoru **Kristalina Georgiyeva** deyir ki, 80-dən çox inkişaf etməkdə olan ölkə fonddan ümumən 2,5 trilyon dollar məbləğində borc istəyib. Bu qəribə virus 50 ildən əvvəl dünyanı bürümüş honkonq qripi kimi ölümcül deyil, lakin iqtisadiyyatları bir-bir silkələyir, çökdürür. Dünya iqtisadiyyatının uzun müddət mühərriki olan Çin sənayesi 13,5% itirdi, ötən ilə nisbətən sərmayələr 1/4 qədər, satış 1/5 azaldı. Beləliklə resurlara tələbat aşağı düşür və neft-qaz ixracatçılarının büdcə planları pozulur, valyuta məzənnələri təzyiqlə üzləşir.








Azərbaycanın mövqeyi daha yaxşıdır. Ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülmüş və reallaşan neft strategiyası nəticəsində Azərbaycan borc alan ölkədən borc verən ölkəyə çevrilib. Ölkənin Mərkəzi Bankı və Dövlət Neft Fondunda 47.7 milyard dollardan artıq vəsait var.

(ARDNF 41.3495 və AMB 6.3938 milyard dollar 1.4.2020)



**Pandemiyanın texnologiyalara təsiri.**

*Tarixə qayıdaraq iqtisadiyyat üçün pozitiv potensial axtaraq:*

XIV əsrin ortalarında Avropanı bürümüş vəba pandemiyasının ədəbi təsviri Şerlok Holmsun müəllifi olan **Artur Konan Doyla məxsusdur:** “1348-ci ildə Avropaya ölüm genuyalıların



ticarət gəmilərində Şimali Qara dəniz sahillərindən gətirilib. Onunla əsas mübarizə üsulu karantin, hakimiyyətin ilk işi ərzaq ehtiyatı yaratma olub. Ölüm 20%-ə çatıb.

Pandemiya sonrası dövrdə mülk qiymətləri azalıb, əmək və biliyin qiyməti qalxıb. İngilis kralı Pis ləqəbli III Eduard şikayətləri nəzərə alaraq, daha yüksək əməkhaqqı istəyən fəhlələri azadlıqdan məhrumetmə barədə fərman imzalayıb. Əmək qiymətinin qalxması daha az işçi saxlamağa imkan yaradan yeni texniki qurğuların ixtirasını təşviq edib. Beləliklə, vəba texnoloji inqilabın əsasını qoyub. Rusiyada isə əhali sıxlığının azlığı xəstəliyin geniş yayılmasına mane olub.” Tarixə əsaslanaraq deyə bilərik ki, indi də pandemiya yeni ixtiralara təkan verəcək.

**Nəticə**

Bu, düşünmək və dəyərləri yenidən qiymətləndirmək üçün vaxtdır. Dünya onlayn sistemə daha çox öyrəşir. Kompüter satışı ötən illə müqayisədə 3,1 dəfə artıb. Online video əlaqələri təmin edən Zoom şirkətinin səhm qiymətləri ilin əvvəlindən 200% yüksəlib. Onlayn total nəzarət artır. Mühafizə tədbirlərini görərək, tərəqqiyə doğru getmək zəruridir. İnternetə çıxış asanlaşmalı, xidmət keyfiyyəti göstəriciləri yaxşılaşmalıdır. FOREX daha da fəallaşıb, kapitalı milli bazarlardan xaricə çıxartmaq istəyir. İmtahanlar üçün sifəti tanıma sistemlərindən istifadə yaranır. Fransızların düzəltdiyi jilet işçilər bir-birinə yaxınlaşanda vibrasiya edərək, məsafə saxlamağı yada salır. Kompüterlə çox məşğul olan gözün güclənməsi üçün kök, göbələk, balıq istehlakının artması, rəqəmsallaşan dünyadan daha çox bəhrələnmək üçün xarici dillərin öyrənilməsinə həvəsin artması müşahidə olunur. Günəşin və dənizin faydası.



Böhran qlobal səhiyyə sisteminin də zəif nöqtələrini göstərir. O, son dövrlər mürəkkəb və bahalı xəstəliklərin müalicəsinə istiqamətlənmişdi. İnfeksion xəstəliklərlə kütləvi mübarizə sistemi isə tələblərə cavab vermir. Sürətli qidalanma kimi sürətli tibb sistemi formalaşıb. Çarpayı sayı az olan sistem. Nəticədə qəza vaxtı “Titanik”dəki kimi hamıya xilas qayıqlarında yer yoxdur.

Antiböhran idarəetmənin növü olan pandemiya menecmenti formalaşır. Səhiyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi arasında fasiləsiz onlayn dialoq və razılaşdırılmış qərarlar olmalıdır. Açıq havada işlər təşviq edilməlidir. Xarici İşlər Nazirliyi ölkəmizin xarici ölkələrdəki səfirlikləri vasitəsilə dünyada vəziyyəti və mübarizə üsulları barədə məlumatı mütəmadi operativ qərargaha çatdırsın.

**Təminat rahatladır.**




Sosial təminatı olan insan karantinə daha rahat riayət edir. İnsanlar düşünür: ödənilməyən kirayə haqqı, kredit borcu, telefon rabitəsi və internetə güzəşt olacaqmı? Dövlət güzəştə gedir, evdə qal müqabilində ödəmələr edir, bəs, özəl sektor necə?

*- Müharibə haqqında kitab, filmlərin populyarlıq səbəbi bir də ona görədir ki, müharibə dövründə bütün resurslar səfərbər olunur. Sonra bu temp dinc quruculuğa xidmət edir. Demək, postpandemiya dövrü sürətli inkişaf üçün zəmindir.*

*- Təklif edirəm Bakı konvensiyası qəbul edilsin. Buna əsasən hər hansı xəstəlik müəyyən yoluxma sayını keçdikdə milli dövlətlər dərhal ÜST-ə məlumat versin.*





Hazırda dünyada 2 milyard adam su və sanitariyaya görə əziyyət çəkir. Demək, yoluxucu xəstəlik törədiciləri üçün münbit şərait var. BMT 2005-2015-ci illəri su dekadası adlandırıb. Lakin problem böyüyür.



ABŞ-ın sabiq prezidenti Bill Klintonun sözünü yada salaq: “Afrikadakı aclara göz yummaqla biz Amerikanın gələcəyini təhlükədə qoyuruq.”



**Fransız fizioloqu Klod Bernar isə deyirdi:** “Mikrob heç nədir, mühit əsasdır”. Çinlilərin, “Meşədəki tikanların hamısını çıxartmaq olmaz, ora başmaqla get” atalar sözünə uyğun maska taxmaq zəruridir. 2019-cu ildə İqtisadiyyat üzrə Nobel mükafatı laureatı (ABŞ) M.Kremerin “Vaksinlər üçün bazarlar yaratmaq” kimi əsərlərin olması iqtisadiyyatın səhiyyəyə təkcə maliyyə deyil, həm də intellektual dəstək verdiyini göstərir.





Koronavirus bioloji silahdırsa, demək artıq dərman da var, vaksin də. Bir qalır onun bazara çıxması. O da pandemiya dövründə tapılmış dərman - vaksin bazara gələndə üzə çıxacaq.

Bu, 1940-cı ildə yaponların Perl Harbora hücum edərək, ABŞ hərbi dəniz donanmasının 1/3-ni məhv etməsi, lakin qəfillik üstünlüyünün itirilməsinə bənzəyir. Dövlətlərin hazırlıq səviyyəsi artıb.

**Sonda “Danışıqlar dahisi” kitabından sitat**



**gətirirəm. Ən güclü danışıq Allah və Musa Peyğəmbər arasında olub:**

***- Allah: Siz mənə şərik, qızıldan büt düzəltdiniz, mən obanızı yerlə yeksan edərəm.***

***- Musa Peyğəmbər: Əlbəttə, sən buna qadirsən, amma orada bir mömin yaşayır.***

***- Allah: Mən o, bir mömininin xətrinə yeri yaşadaram.***



***Yüz milyonlarla möminin xətrinə dünya yaşayar!***

**P.S Məqaləmi pandemiya dövründə, 22 aprel - Yer Kürəsi günü ərəfəsində**

yazmağa başladığımdan onu belə tamamlayıram:



**YAŞA PLANET, YAŞA,**
**İNSANLIĞI YAŞAT, PLANET, YAŞA!**



*Elşad Ziyad oğlu Səmədzadə,*
*i.f.d., Azərbaycan*
*İqtisadçılar İttifaqının sədr müavini,*
*Azərbaycan Dövlət*
*İqtisad Universitetinin dosenti,*
*Beynəlxalq Menecment*
*Akademiyasının müxbir üzvü*



*14 iyul 2020-ci il «Respublika» qəzetində dərc olunmuşdur*

# Hansı ölkələrdə gəlir vergisi tutulmur?

*Dünyanın müxtəlif ölkələrində tutulan vergilərin növləri və dərəcələri fərqlidir. Bəzi ölkələrdə gəlir vergisinin dərəcəsi yüksək olsa da, bir sıra ölkələrdə bu vergi tutulmur. Adları "qara siyahı"lara daxil edilən bu cür ölkələr, əslində, müasir dünyada iqtisadi tarazlığın qorunması baxımından ciddi problemlər yaradırlar.*



Birləşmiş Ərəb Əmirliyi (BƏƏ) adambaşına ən yüksək gəlir düşən ölkələrdən biri olmasına baxmayaraq, vətəndaşlar vergi ödəmirlər. BƏƏ-də nə gəlir vergisi, nə də ƏDV var. Eləcə də şirkətlər də mənfəət vergisi ödəmir. Lakin, sözügedən ölkədə alkoqollu içkilərə görə 50 faizlik vergi mövcuddur.



Qətər dünyada maye və təbii qaz infrastrukturunun qurulmasına və ixracına böyük vəsaitlər xərcləyən ən varlı ölkələrdən biri sayılır. Bu ölkədə gəlir vergisi, eləcə də mənfəətlə bağlı digər vergilər yoxdur. Qətər sakinləri yalnız sosial sığorta ödənişləri və idxal mallarına görə 5 faizlik dolayı vergi ödəyirlər.



Oman sultanlığı da Yaxın Şərqin digər ölkələri kimi əsasən neft satışı hesabına gəlir əldə edir. Oman sakinləri nə gəlir vergisi, nə də mənfəətdən tutulan vergini ödəyirlər, yalnız öz əmək haqlarından 6,5 faiz tarifi ilə aylıq sosial sığorta ödənişləri edirlər. Omanda təkcə daşınmaz əmlak alğı-satqısı zamanı vergi tutulur.



Küveyt dünyada neft ixracına görə 6-cı yerdə qərarlaşıb, bu ölkənin büdcəsini 95 faizini neft satışından əldə olunan gəlirlər təşkil edir. Küveyt adambaşına düşən gəlirlərə görə dünyada ən yüksək göstəriciyə malik olan ölkələrdən biridir. Küveyt sakinləri heç bir vergi ödəmirlər, bu ölkədə yalnız sosial sığorta ödənişləri tutulur.



Kayman adaları əsl "vergi cənnəti" sayılır. Burada, ümumiyyətlə, hər hansı bir vergi növü – nə gəlir vergisi, nə mənfəətdən tutulan vergi, nə ƏDV, nə də məcburi sığorta ödənişləri var. Yeganə vergi növü – idxal mallarına yönəldilən və 25 faiz tarifə qədər çata bilən dolayı vergi mövcuddur.



Bəhreyndə də gəlir vergisi və mənfəətdən heç bir vergi tutulmur. Bu ölkənin büdcəsi "Abu-Safa" neft yatağından əldə olunan neftin hesabına doldurulur. Bəhreyn sakinləri yalnız məcburi sosial sığorta ödənişləri edirlər və daşınmaz əmlaka görə vergi ödəyirlər. Əcnəbilər isə Fars körfəzində əmlak icarəsinə görə də vergi ödəməli olurlar.

Bermud adaları Böyük Britaniyanın ərazisi hesab olunur. Bura dünyanın ən varlı ölkələrindən biridir. Vergi sisteminin cazibədarlığı adaya bir çox beynəlxalq şirkətləri



cəlb edir, bura onlar üçün əsl "vergi cənnəti" sayılır. Belə ki, ölkə vətəndaşlarının 20 faizini onun hüdudlarından kənarda doğulanlar təşkil edir. Baxmayaraq ki, adada heç bir gəlir vergisi və mənfəətdən tutulan vergi növü mövcud deyil, sakinləri sosial sığorta ödənişləri və ya əməkhaqqı fonduna köçürmələr etməyə məcbur edilə bilərlər. Bundan əlavə, Bermud adaları sakinləri daşınmaz əmlaka və mirasa görə də vergi ödəyirlər.



Baham adalarında iqtisadiyyat başlıca olaraq turizmdən asılıdır, burada da gəlir və mənfəət vergisi yoxdur. İşçilər yalnız sosial sığorta ilə bağlı müxtəlif ödənişlər edirlər. Ölkə büdcəsinin demək olar ki, 70 faizi idxala görə tətbiq edilən gömrük rüsumlarından formalaşır. Sakinlər yalnız daşınmaz əmlaka görə vergi ödəyirlər.



Monako knyazlığında vergilər hələ XIX əsrdə ləğv edilib. Yalnız Fransa vətəndaşları istisna təşkil edirlər.

Onlar 1957-ci ildən başlayaraq gəlir vergisi ödəyirlər. Bu ölkədə kapital artımına və daşınmaz əmlaka görə də vergilər yoxdur.

Monako Avropada cırtdan ölkələrdən biridir, vergi sistemində gəlir vergisi və ƏDV ümumiyyətlə, yoxdur. Ölkə ÜDM-nin 80 faizi turizmdən daxil olan gəlirlərdən formalaşır. Hər il bu ölkəni 9 milyon turist ziyarət edir.

# Böyük Britaniyada ictimai iaşə sektorunda ƏDV 75 faiz aşağı salınacaq

Böyük Britaniyanın maliyyə naziri Rişi Sunak koronavirus epidemiyasından sonra iqtisadiyyatın yenidən canlandırılması üçün hökumətin 30 milyard funt sterlinq (64,1 milyard manat) həcmində investisiya planı barədə açıqlama verib.

Nazir parlamentdəki çıxışında hökumətin virus epidemiyası ilə bağlı işləməyənlərə haqqı ödənilməklə evdə qalmağa icazə proqramı çərçivəsində dəstəyinin sentyabr ayının sonuna qədər davam edəcəyini, proqram başa çatandan sonra isə müəssisələrdə çalışanların hər biri üçün 3 ay ərzində 1000 (2137 manat) funt sterlinq əlavə dəstək veriləcəyini bildirib.

Sunak, "Məşğulluğun qorunması bonusu" adlandırılan bu proqramın hökumətə ümumilikdə 9,4 milyard funt sterlinqə (20 milyard manat) başa gələcəyini qeyd edib.



Maliyyə naziri İctimai iaşə, qonaqlama sahəsində tətbiq olunan əlavə dəyər vergisinin müvəqqəti olaraq 20 faizdən 5 faiz səviyyəsinə endiriləcəyini vurğulayıb. Avqust ayında həyata keçiriləcək "Evdən kənarda ye və yardımçı ol" proqramı çərçivəsində restoranlarda yemək yeyənlərin 50 faiz səviyyəsində endirimdən faydalana biləcəyi, bunun ümumi dəyərinin 500 milyon funt sterlinq (1 milyard manat) olacağı və 1,8 milyon insanın məşğulluğunu davam etdirməsinə yardım edəcəyi bildirilib.

Bu proqrama əsasən bazar ertəsi, çərşənbə axşamı və çərşənbə günləri restoranlarda yemək yeyən hər kəs 10 funt sterlinqə qədər dövlət dəstəyindən istifadə edə biləcək.

# İsveçdə hər plastik torba üçün 55 qəpik vergi tutulur



İsveç hökuməti plastik torbaların satışını azaltmaq məqsədilə may ayının 1-də hər torba üçün 3 kron (55 qəpik) vergi tətbiq ediləcəyini açıqlamışdı. Bundan sonra marketlərdə hər plastik torba üçün müştərilərdən 7 kron (1 manat 30 qəpik) pul tutmağa başlayıb. Ölkənin ən böyük supermarketlər şəbəkəsi sayılan "ICA", "COOP" və "Axfood" plastik torba satışının 70 faiz azaldığını bildirib.

Qeyd edək ki, plastik torbalara vergi tətbiq olunmasının əsas məqsədi qablaşdırma tullantılarının həcmini azaltmaqdır. İsveçin Ətraf Mühitin Mühafizəsi İdarəsinin məlumatına görə, keçən il ölkədə adambaşına 75 ədəd plastik torba istehlak olunub. Hökumətin hədəfi 2025-ci ilə qədər bu göstəricinin 40-a endirilməsidir. İsveç hökuməti bu il "torba vergisi"ndən dövlət xəzinəsinə 2 milyard kron (370 milyon manat) vəsait daxil olacağını proqnozlaşdırır.

# Almaniyanın hazırladığı maliyyə fondu vergi risklərini aradan qaldıracaq

Avropa Komissiyası COVİD-19 pandemiyası ilə əlaqədar şirkətlərin üzləşdikləri çətinliklərin öhdəsindən gələ bilmələrinə dəstək vermək üçün Almaniyanın hazırladığı 500 milyard avro məbləğində fondu təsdiqləyib. Fondun 400 milyard avroluq hissəsini şirkətlərin borclanması və buna oxşar tələblər üçün veriləcək zəmanətlər təşkil edəcək; qalan hissə isə şirkətlərə sərmayə tipli kreditlər verilməsi, kapital əsaslı maliyyə alətləri və birgə sərmayə alətləri kimi təkrar sərmayə vasitələri qismində istifadə ediləcək.

Avropa Komissiyası sədrinin müavini Marqret Vestager Almaniyanın hazırladığı fondun



şirkətlər üçün 500 milyard avro dəyərində likvidlik və sərmayə dəstəyi kimi istifadə ediləcəyini vurğulayaraq bu yolla vergi ödəyicilərinin üzərinə düşən riskin iqtisadi yolla aradan qaldırılacağını bildirib. Vestager maliyyə mənbəyindən istifadə şərtlərinin arasında divident və bonus ödəmələri qadağaları kimi məhdudiyyətlərin olduğuna da diqqət çəkib.

# ABŞ-da büdcə defisiti rekord həddə çatıb

İyun ayında ABŞ-da büdcə defisiti rekord məbləğə - 864 milyard dollara çatıb. Bu barədə Birləşmiş Ştatların Maliyyə Nazirliyi məlumat yayıb. Məlumata görə, büdcə defisiti may göstəricisindən iki dəfə, ötən ilin iyun ayının göstəricisindən isə demək olar ki, 10 dəfə çoxdur. Bundan başqa, iyun ayında büdcə gəlirlərinin azalması 2019-cu maliyyə ilinin defisitinə bərabər olub.

Nazirliyin məlumatına əsasən, büdcə



kəsirinin artması federal hökumətin koronavirusun yayılmasına qarşı mübarizədə artan xərcləri, həmçinin vergi yığımının azalması ilə bağlıdır.

Bir qədər əvvəl ABŞ Maliyyə Nazirliyinin sabiq rəhbəri Henri Polson xəbərdarlıq etmişdi ki, dövlət borcunun nəzarətsiz artması və büdcə defisiti dolların dünyanın əsas ehtiyat valyutası qismində nüfuzunu itirməsinə gətirib çıxara bilər.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə ADA Universitetinin rektoru
Hafiz Paşayevə, həyat yoldaşı
**RƏNA PAŞAYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Şirin Şirinova, bacısı
**NAZİLƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500